

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 181 (21.591)

*28 sentyabr 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Türkiyə Respublikasının müdafiə naziri Fikri Işıqın, mədəniyyət və turizm naziri Nabi Avcının başçılıq etdikləri nümayəndə heyətlərini qəbul edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında müdafiə, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb, "ADEX-2016" İkinci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin əhəmiyyətindən danışılıb.

Söhbət zamanı ölkələrimiz arasında mədəniyyət və turizm sahəsində əlaqələrin uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulanıb. Son vaxtlar turizm sahəsində görülən tədbirlər nəticəsində ölkəmizə turistlərin sayının artdığı qeyd edilib, Türkiyənin bu sahədə zəngin təcrübəyə malik olmasının əhəmiyyəti diqqətə çatdırılıb. Dünya Turizm Günündə Türkiyənin mədəniyyət və turizm naziri Nabi Avcının ölkəmizə səfərinin önəmi vurğulanıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olunub.



## Muzeylərə kollektiv gedişlər davam edir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Bəhruz Kəngərli Muzeyində olublar.***

Bildirilib ki, Bəhruz Kəngərli Azərbaycan rəssamlıq sənətinə yeni üslub və milli ruh gətirən, zəngin yaradıcılıq imkanlarına malik olan vətənpərvər sənətkar idi. Teatr rəssamlığı, qrafika və digər janrlara müraciət edən, portret janrında dəyərli əsərlər yaradan Bəhruz Kəngərli bütün ömrü boyu mədəniyyətimizin inkişafı naminə yorulmadan çalışıb. Görkəmli rəssam doğma Vətəninin gözəlliklərini tərənnüm edib. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. Bütün varlığı ilə sevdiyi Vətəninin gözəl guşələrini məhz öz sehrli fırçası ilə kağıza köçürən rəssamın əsərlərində Naxçıvanın gözəllikləri xüsusi məhəbbətlə təsvir olunub.



Görkəmli rəssamın irsinə göstərilən böyük dövlət qayğısının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə Bəhruz Kəngərli Muzeyi yaradılıb. 2013-cü ildə isə Bəhruz Kəngərli Muzeyinin binası yenidən qurulub.

Qeyd olunub ki, hazırda muzeyin fondunda 1000-dək eksponat var, onlardan 366-sı ekspozisiyada nümayiş etdirilir. Nümayiş etdirilən eksponatlardan 58-i orijinal rəsm əsərləridir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri də Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Təhlükəsizlik Xidmətinin və Daxili İşlər Nazirliyinin kollektivləri Cəmşid Naxçıvanskinin ev-muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar və Səhiyyə nazirliklərinin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Gənclər və İdman, Təhsil, Mədəniyyət və Turizm nazirliklərinin kollektivləri Ədəbiyyat Muzeyində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyində, Dövlət Statistika, Meliorasiya və Su Təsərrüfatı komitələrinin, Televiziya və Radio Şurasının, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin və "Şərq qapısı" qəzetinin kollektivləri Dövlət Bayrağı Muzeyində olublar. Standartlaşdırma, Metrologiya və Patent üzrə, Ailə, Qadın və Uşaq Problemləri üzrə, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət komitələrinin kollektivləri "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksini, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Dövlət Baytarlıq Xidmətinin kollektivləri Cəlil Məmmədquluzadənin ev-muzeyini, Mərkəzi Seçki Komissiyası, Dövlət Sosial Müdafiə Fondu və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyini, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin və Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri isə Xatirə Muzeyini ziyarət ediblər.

✍ **Səbuhi HƏSƏNOV**

## I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir



*"ABŞ və Fransa alimlərinin naxçıvanlı elm adamları ilə birlikdə Naxçıvanda arxeoloji tədqiqatlar aparması təkcə tariximizin öyrənilməsi baxımından deyil, həm də qədim tariximizin dünyada təbliği baxımından böyük əhəmiyyət daşıyır. Ordubad ərazisində arxeoloji araşdırmalar aparan AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Xaraba Gilan" arxeoloji ekspedisiyası, Azərbaycan-ABŞ, Azərbaycan-Fransa, AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyalarının əldə etdiyi nəticələr Naxçıvan ərazisinin arxeoloji cəhətdən nə qədər zəngin olduğunu göstərir".*

Bu fikirləri Azərbaycan-Fransa, Azərbaycan-Amerika və AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyaları tərəfindən Naxçıvan ərazisində bu il aparılan tədqiqatların nəticələrinə həsr olunmuş yığıncaqda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev səsləndirib.

Bildirilib ki, son illər Naxçıvanda bəşər tarixinin öyrənilməsi üçün böyük əhəmiyyəti olan xeyli yeni abidələr aşkar olunub. Bu da Naxçıvanın tarix və mədəniyyət abidələrinin tədqiqinə dövlət qayğısının ildən-ilə artması ilə bağlıdır. Abidələrimizin tədqiqi göstərir ki, Naxçıvan müxtəlif dövrlərdə qədim mədəniyyətlərin beşiyi olub.

Hesabat yığıncağında Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Azərbaycan tərəfdən rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bu il qazıntıların getdiyi ərazilər, aşkarlanmış maddi-mədəniyyət nümunələri və nəticələr haqqında slaydlar vasitəsilə elmi ictimaiyyətin nümayəndələrinə məlumat verib.

Vurğulanıb ki, bu il Qız qalası yaşayış yerinin alt təbəqələrində aparılan qazıntılar zamanı qəbir abidələrinə rast gəlinməsi olduqca maraqlı faktdır. Bilavasitə yaşayış yerinin yaxınlığında aşkar olunan bu qəbirlərin birindən Orta Tunc dövrünün erkən mərhələsi üçün xarakterik olan boyalı qablar aşkar edilib.

Qız qalası yaşayış yeri və onun ətrafındakı kurqanlarda aparılan araşdırmalar onların vahid bir kompleks təşkil etdiyini göstərir. Adıçəkilən yaşayış yerində aparılan araşdırmalar zamanı Orta Tunc dövrünə aid 2,5-3 metr qalınlığında mədəni təbəqənin varlığı müəyyən edilib. Bu, Naxçıvanda I Kültəpə, II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir.

Diqqətə çatdırılıb ki, 2016-cı ilin avqust ayında AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Fransa Milli Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birlikdə I Kültəpə yaşayış yerində tədqiqat işlərinə başlayıb. Ekspedisiyanın əsas məqsədi Neolit dövrünün sonuna aid olan I Kültəpə yaşayış yerində məskunlaşmanın tarixi və qədim Naxçıvan sakinlərinin ətraf aləmlə əlaqələrini öyrənməkdən ibarətdir.

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir. Cənubi Qafqazda ən qədim metallurgiya mərkəzinin də Naxçıvan olduğunun müəyyənləşdirilməsi üçün müəyyən işlər aparılır. İlk tədqiqatlar Naxçıvandakı qədim mis yataqlarının o dövrün insanları tərəfindən istifadə olunduğunu təsdiq edir. Qədim mis, qurğuşun alətlərin mis yataqları ilə qarşılıqlı analizi Naxçıvanın qədim metallurgiyasının yerli xammala əsaslandığını deməyə əsas verir.

✍ **Nərgiz İSMAYILOVA**

***Qədim oğuz yurdu Naxçıvanın bugünkü sosial-iqtisadi, elmi-mədəni inkişafı burada keçirilən beynəlxalq elmi simpozium və konfranslarla, eləcə də beynəlxalq və yerli əhəmiyyətli mədəni tədbirlərlə müşayiət olunmaqdadır.***

## Naxçıvanda *"Plov"* və *"Yallı"* festivalları keçiriləcək

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu il tarixli Sərəncamından sonra xalq yaradıcılığının müxtəlif sahələrini əhatə edən, adət-ənənələrimizin təbliğinə yönəlmiş tədbirlərin əhatəsi daha da genişlənib. Təkcə bu ilin may-avqust aylarında Naxçıvanda 4 festival keçirilib. "Yaradıcı əllər", "Göycə", "İstedadlı uşaqlar" və "Naxçıvan çörəkləri" adlı festivallar ictimaiyyət tərəfindən maraqla qarşılanmaqla muxtar respublikaya olan diqqət və marağı artırıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyindən aldığımız məlumata görə, bu tədbirlərin davamı olaraq sentyabrın 30-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Plov" və "Yallı" festivalları keçiriləcəkdir. Festivallarda milli mətbəximizin incisi plov nümayiş etdiriləcək, qədim yallılarımız ifa olunacaqdır. "Ən dadlı plov" müsabiqəsinin qalibləri və "Ən yaxşı yallı" kollektivləri mükafatlandırılacaqlar.

"Plov" və "Yallı" festivalları muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olmaqla, regionun bölgələrinə xas müxtəlif çeşidli plov növlərinin və onların hazırlanması qaydalarının nümayişi, xalqımızın ən qədim folklor nümunələrindən olan, birlik və mübarizlik rəmzi sayılan yallılarımızın təbliği baxımından olduqca əhəmiyyətli tədbirdir.

Plov Şərq xalqlarının süfrə mədəniyyətinə aid olan yeməkdir. Mənbələrin məlumatlarına görə, ölkəmizdə plovun 200-dən çox növü var. Festivalda nümayiş olunacaq müxtəlif plov növləri peşəkar və həvəskar aşpazlar tərəfindən hazırlanacaqdır.

Milli mətbəximizin incisi plov sayıldığı kimi, xalqımızın zəngin folklorunu yaşadan da yallılarımız hesab olunur. Yaşı min illərlə ölçülən yallı haqqında təsvirlərə və məlumatlara Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində, "Kitabi-Dədə Qorqud" dastanlarında və ədəbiyyatımızda Nizaminin "Xosrov və Şirin" poemasında rast gəlinir.

Bu gün muxtar respublikamızda 40-dan çox yallı oynanılır. Yallını xoreoqrafik məzmununa görə 2 növə – süjetli və rəqs yallılarına ayırırlar. Süjetli yallılar teatrlaşmış xalq oyunları olduğu üçün oyun yallısı adlanır. Rəqs yallılarında isə qəhrəmanlıq motivləri, xalqımızın əhval-ruhiyyəsi, çeviklik, cəsarət əks olunur. Bu gün muxtar respublikamızda milli-mənəvi dəyərlərin, xalq yaradıcılığının təbliği, qorunması və yaşadılması istiqamətində mühüm işlər həyata keçirilir. Yallıların nota alınması, yeni folklor kollektivlərinin yaradılması, araşdırma və tədqiqatların aparılması ənənələrin yaşadıldığını bir daha təsdiq edir. "Plov" və "Yallı" festivallarının keçirilməsinin nəzərdə tutulması bu baxımdan əhəmiyyətlidir.

✍ **Rauf ƏLİYEV**

*27 sentyabr Turizm İşçiləri Günüdür*

# Naxçıvan turizm üçün əlverişli məkandır



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixli Sərəncamına əsasən sentyabrın 27-si ölkəmizdə "Turizm işçiləri günü" peşə bayramı kimi təsis edilib. Bu tarix həm də dünyada Beynəlxalq Turizm Günü kimi qeyd olunur.***

Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən biri kimi geniş və sürətlə inkişaf edən iqtisadi sektordur. Onun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sahəni sosial-iqtisadi tərəqqidə aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən və zəngin təbii resurslara malik olan Azərbaycanda da bu sahənin inkişafı diqqət mərkəzindədir.

Azərbaycanda turizmin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq ölkə turizminin əsaslı inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Məhz bu illərdə Azərbaycanda turizm təşkilatları və ekskursiya bazalarının geniş şəbəkəsi yaradılmış, müasir mehmanxanalar, ictimai əyləncə obyektləri inşa olunmuşdur. Ölkəmiz müstəqillik qazandıqdan sonra da ulu öndər bu sahənin inkişafını diqqətdə saxlamış, dövlət turizm siyasətinin tənzimlənməsi sahəsində mühüm hüquqi baza yaradılmış, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.

Ümummilli liderimizin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də turizmin inkişafını ölkə iqtisadiyyatının vacib sahələrindən biri kimi daim diqqət mərkəzində saxlayır. Son illərdə ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ölkə başçısının imzaladığı sərəncamlar, qəbul edilən dövlət proqramlarının uğurlu icrası Azərbaycanı dünyada turizm ölkəsinə çevirmişdir. 2011-ci ilin "Turizm ili" elan edilməsi isə Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin daha bir ifadəsi olmuşdur.

***"Ölkəmizin dayanıqlı inkişafı üçün gəlir gətirən sahələr inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur. Turizmin inkişafı üçün birinci şərt ölkədə beynəlxalq irimiqyaslı tədbirlərin keçirilməsidirsə, ikinci şərt ölkədə infrastrukturun inkişaf etdirilməsidir",*** – deyən ölkə başçısının rəhbərliyi ilə son illər Azərbaycanın bütün regionlarında yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni-tarixi qoruqlar yaradılmışdır. Hazırda icrası uğurla davam etdirilən "2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı" turizm-kurort sahələrinin inkişafına hesablanmış mühüm addımdır. Ölkəmiz son illər bir çox mədəniyyət, idman və digər sahələr üzrə beynəlxalq tədbirlərə, o cümlədən ənənə halını almış Dünya Mədəniyyətlərarası Dialoq və Bakı Beynəlxalq Humanitar forumlarına layiqincə ev sahibliyi edir. Eyni zamanda Bakıda böyük uğurla keçirilən I Avropa Oyunları, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Avropa Qranpri yarışı ölkəmizin turizm potensialının təbliğində mühüm rol oynamışdır. Belə mötəbər tədbirlərin keçirilməsi beynəlxalq aləmdə ölkəmizin artan nüfuzunun real göstəricisi olmaqla yanaşı, həm də respublikamızın müasir inkişafını və təbii gözəlliklərini, xalqımızın qonaqpərvərliyini, tolerantlığını, qədim mədəniyyətini və tarixini təbliğ etmək və tanıtmaq baxımından əhəmiyyətli olmuşdur. Digər bir tərəfdən multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanda qonaqpərvərlik və tolerantlıq ənənələri hər zaman ölkəmizə gələn turistlərin diqqətini cəlb edir.

Naxçıvan Muxtar Respublikasının da geniş turizm potensialı vardır. Qədim diyarda tarixi-mədəni turizmlə yanaşı, turizmin ekoloji, ziyarət, müalicə, dağçılıq və digər növlərinin inkişaf etdirilməsi üçün imkanlar mövcuddur. Muxtar respublika kəndlərinin çoxu coğrafi baxımdan dağlıq ərazilərdə, çay vadilərində yerləşir. Münbit torpaq, saf su, təmiz hava, zəngin dərman bitkiləri, bol günəş – bütün bunlar ekoloji turizmin inkişafı üçün zəngin təbiət sərvətləridir.

Muxtar respublikada 3 yasaqlıq, 1 milli park, 1 qoruq yaradılmışdır. Bu, o deməkdir ki, muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə altındadır ki, bu da ekoloji tarazlığın qorunmasına xidmət edir. Şahbuz rayonunun ərazisində yerləşən Batabat, Ordubad rayonundakı Göygöl təbiəti sevənləri özünə cəlb edir. Muxtar respublikada gedən sosial-iqtisadi inkişaf ən ucqar dağ kəndlərini də əhatə etdiyindən burada kənd yaşıl turizminin də inkişafı üçün geniş perspektivlər vardır. Qədim diyarın Biçənək, Kükü, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Ərəfsə, Gümüşlü və başqa onlarla yaşayış məntəqəsində kənd yaşıl turizminin inkişafı üçün əlverişli şərait mövcuddur. 250-dən çox mineral və müalicə əhəmiyyətli su mənbələrinin mövcudluğu, zəngin mətbəxi, qədim tarixi və mədəniyyəti Naxçıvanda turizmin inkişafı üçün geniş imkanlar açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizm sahəsinin də inkişafına təsir etmiş, muxtar respublikaya gələn turistlərin sayı ilbeil artmışdır. Hazırda muxtar respublikada 21 mehmanxana və mehmanxanatipli müəssisə, Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincə qalası, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat, Naxçıvan-Gülüstan turizm marşrutları fəaliyyət göstərir. Qədim diyarımızın bütün bölgələrini əhatə edən müasir infrastrukturun qurulması, istirahət və əyləncə mərkəzlərinin yaradılması, tarixi-mədəni irsə qayğı, yaşayış məntəqələrinin abadlaşdırılması, enerji, nəqliyyat, rabitə xidmətinin yüksəldilməsi muxtar respublikada turizmin inkişafını şərtləndirir. Bu gün Naxçıvan kəndləri təmiz havası, saf suyu və ekoloji təmiz məhsulları, əlverişli iqlim şəraiti, abad yol və müasir rabitə xidməti ilə turizmin inkişafı üçün böyük imkanlar açır. 2013-cü ildə Şahbuz rayonunda Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Muxtar respublikada müalicə turizminin inkişafı üçün də geniş imkanlar vardır. Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılmışdır. Buraya hər il müxtəlif ölkələrdən yüzlərlə insanın müalicəyə gəlməsi həm də onun turizm əhəmiyyətini artırır. Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Azərbaycanın mineral su ehtiyatlarının 60 faizi muxtar respublikanın payına düşür. Süfrələrin bəzəyi olan "Badamlı" və "Sirab" artıq çoxdan ölkəmizdən kənarda da şəfalı sular kimi şöhrət tapmışdır.

Turizmin inkişafı həm də bu sahədə ixtisaslı kadrların hazırlanmasını tələb edir. Muxtar respublikada bu sahənin peşəkar kadrlarla təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülür. Bu gün Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində Turizm və otelçilik ixtisası üzrə kadrlar hazırlanır. Həmçinin Naxçıvan Muxtar Respublikası beynəlxalq və daxili turizm sərgilərində fəal iştirak edir. Bu il 40 ölkənin, 200-dən artıq şirkətin iştirakı ilə Bakıda keçirilən Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində Naxçıvan Muxtar Respublikası 6 otel ilə təmsil olunmuşdur. Muxtar respublikanın təbii gözəlliklərini, ecazkar təbiətini nümayiş etdirmək baxımından bu sərginin mühüm əhəmiyyəti olmuşdur.

Muxtar respublikanı turizm cəhətdən cəlbedici edən amillərdən biri də burada mövcud olan minlərlə tarixi-mədəni abidələrdir. Bu abidələri görmək üçün hər il yüzlərlə turist muxtar respublikamıza üz tutur. Təbii ki, abidələrin qorunması, bərpası və təbliği sahəsində görülən işlər bu baxımdan mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq, muxtar respublika ərazisindəki 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Naxçıvanı dünyada tanıdan, yüksək turizm imkanlarına malik olan bu abidələrin bərpası diqqət mərkəzində saxlanılmış, yüzlərlə tarixi-mədəni abidəyə yeni həyat verilmişdir. Bu il bərpadan sonra ikinci həyatını yaşayan Əlincəqala və Gülüstan türbəsi qədim diyara gələn turistlərin marağına səbəb olmuşdur. Muxtar respublikadakı tarixi abidələr bura səfər edən alim, tədqiqatçı, jurnalist və turistlərin diqqətini cəlb edir, onlar ölkələrinə qayıtdıqdan sonra muxtar respublikanın zəngin mədəniyyəti, qədim tarixi və abidələri barədə yüzlərlə əsər, məqalə, reportajlar hazırlayıb dünya ictimaiyyətinə çatdırırlar. 2016-cı ilin yanvar-iyun aylarında muxtar respublikamıza 187 min nəfərdən çox turist gəlmişdir ki, bu da 2015-ci illə müqayisədə 4,1 faiz çoxdur.

Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm marşrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır. Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilmişdir. Burada bərpa işləri aparılmış, turistlərin ziyarəti üçün lazımi şərait yaradılmışdır. Bütün bunlar onu göstərir ki, Naxçıvanda dini turizmin inkişafı üçün də real imkanlar mövcuddur.

Hər turist özlüyündə bir informasiya daşıyıcısıdır. Turist səfər etdiyi ölkənin təbiəti, mətbəxi, tarixi və mədəniyyəti, qonaqpərvərliyi ilə bağlı məlumatları öz ölkəsinə aparır və təbliğ edir. 2012-ci ildə Naxçıvan şəhərindəki 17-ci əsrə aid Zaviyyə-Mədrəsə binası əsaslı təmir olunmuş və Naxçıvan Turizm İnformasiya Mərkəzi bu tarixi binada fəaliyyətə başlamışdır. Mərkəz öz fəaliyyətini turizm məlumat bankının hazırlanması, digər turizm informasiya mərkəzləri ilə işgüzar münasibətlərin yaradılması, buraya müraciət edənlərə otellər, tarixi və mədəniyyət abidələri, tur firmalar və bələdçilər haqqında məlumat verilməsi, həmçinin internet resurslarından səmərəli istifadə vasitəsilə muxtar respublikanın ilbeil inkişaf edən turizm potensialının təbliği istiqamətində qurmuşdur.

Turistlər o ölkələrə səfər edirlər ki, orada inkişafla yanaşı, həm də sabitlik olsun. Bu gün ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında sabitlik və əmin-amanlıqdır. Naxçıvan şəhəri cinayətsiz region statusunu uzun illərdir, qoruyub saxlayır. Muxtar respublikadakı sabitlik imkan verir ki, turistlər öz istirahətlərini mənalı və təhlükəsiz keçirsinlər. Naxçıvan artıq mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması da bu baxımdan xüsusi əhəmiyyətə malikdir.










***Bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı keçirilən müşavirədə verilən tapşırıqların uğurlu icrası turizmin inkişafına geniş üfüqlər açmaqdadır.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Əlincəyə gedən yol

## Beşinci yazı

***Muzeyin önündə dayanmış maşına əyləşirik. Yenə sürücü əvvəlki səs tonu ilə "İndi hara gedirik, müəllim?" – deyir. Ondan fərqli olaraq mən nə saata baxıram, nə də səsimin tonunu dəyişirəm. Bir rahatlıqla onun mənə xatırlatdığı ünvanı söyləyirəm.***

– Gedirik Nəiminin məqbərəsini ziyarət etməyə.

Gəldiyimiz yolla hardasa 5-8 kilometr geriyə qayıdırıq. Maşın sola, kənd yoluna dönür. İnanın ki, heç magistraldan fərqlənməyən bir yol. Kəndin adına diqqət yetirirəm – Xanəgah kəndi. Culfa rayonunun bu qədim kəndi həm dağlıq ərazidə, həm də çay kənarında yerləşib. Magistral yolun kənarındakı məktəb, xəstəxana və digər ictimai binalar o qədər yaraşıqlı və diqqətçəkəndir ki, mən gözümü onlardan ayıra bilmirəm. Maraqla baxdığımı görən sürücü kəndin ortasında bir anlıq maşınını saxlayır və qaçaraq marketdən sərin su alıb gətirir. Bu, əsl dərman olur bizim üçün. Çünki Əlincəyə qalxıb-enəndən sonra ürəyimiz əməlli-başlı maye tələb edir, dodaqlarımız çatlayır. Ona "sağ ol" deyərək suları başımıza çəkirik. Bizim bu münasibətimiz onun qırışığını açır, özündən razı halda gülümsəyir. Maşın kəndin içi ilə hərəkət edir, yenə baş yoldan sola, yamaca diklənir. Gözümüzün önündə qədim bir məqbərə canlanır. Hər tərəf səliqə-sahmanlı, hətta qarşısındakı qoz ağacının da barı kifayət qədər olan bu məscid-məqbərə neçə min illər görüb. Amma ona elə diqqət yetirilib, elə sevgi ilə yanaşılıb ki, illərin toxunduğu zədələr heç yerində qalmayıb.

Bu, hürufilik təriqətinin banisi, böyük Nəsiminin müəllimi Fəzlullah Nəiminin məqbərəsidi. Əlincəçay xanəgahının bu ünvanı son dərəcə müasirlik aşılayır adamda. Çünki burada elə bir şərait yaradılıb ki, keçmişlə bu gün bir-birinə qovuşub. Böyük alimin, şairin ruhu burda çox rahatdı. Pillələrlə üzüyuxarı qalxıram – yenə səliqə, yenə sahman. Vallah, adamın belə yerdə ölüb-qalmaq da ürəyindən keçir. Niyə də keçməsin? Hər şey yerli-yerində: suyu, havası, gülü-çiçəyi. Nazim Hikmət demiş, ceviz ağacı, məqbərəsi və bir də ziyarətçiləri…

Əslində, insanı yaşadan elə bunlardı. Mən balaca bir kəndin hürufiliyin banisinə olan bu sevgisini, diqqətini qiymətləndirməkdə acizəm. Bircə onu ifadə edə bilərəm ki, Naxçıvanda gördüyüm bütün tarixi abidələrə, bütün müqəddəs yerlərə birmənalı şəkildə, bax elə belə yanaşılır, bu cür diqqət göstərilir. Bunun səbəbi barəsində düşünəndə ilk xatırladığım hələ Bakıda, redaksiyamızda dəfələrlə həmsöhbət olduğum şair dostum, ağsaqqal qardaşım İbrahim Yusifoğlunun söylədikləri düşür. İbrahim müəllim Naxçıvanla bağlı suallarımı cavablandırarkən həmişə deyir ki, Naxçıvanda Ali Məclisin Sədri özü şəxsən tarixə, mədəniyyətə, abidələrə, bütövlükdə, səliqə-sahmana qarşı o qədər həssas və diqqətlidir ki, digər məmurlar da bu nümunədən yararlanırlar. Necə deyərlər, idarəedənin özünün münasibəti artıq muxtar respublikada bir ənənəyə çevrilib. Uşaqdan-böyüyə hər kəs tarixə diqqət ayırır, abidələrə sahiblik münasibəti göstərir. Deməli, bu da tariximizi hələ neçə-neçə nəsillərin istifadəsinə bu gündən təqdim etmək, hazırlamaq deməkdir…

Bəli, Əlincə səfərim bu kəndin ziyarəti ilə Nəiminin ruhuna oxuduğumuz dualarla başa çatır...

...Və bu vaxt mən böyük Nəsiminin dünyaya səs salan məşhur misralarını, yəni "Məndə sığar iki cahan…" sədalarını elə bil ki, xalq artisti Rasim Balayevin dilindən eşidirəm. İnanın ki, bu, mənə o qədər doğma gəlir ki, özüm də hiss etmədən Nəsiminin misralarının heç həndəvərinə yaxın gələ bilməyəcək öz misralarımı pıçıldayıram və elə həmin misraları pıçıldaya-pıçıldaya böyük şairdən məni bağışlamasını rica edirəm:

*Bu boyda dərdlə, kədərlə,*
*Payıma düşən qədərlə*
*Görün ki, nələr, nələrlə –*
*Mən bu cahana sığmıram.*

*Tarixə işıq salıram,*
*Hər qata heyran qalıram.*
*Coşuram, ilham alıram –*
*Mən bu cahana sığmıram.*

*Pillələr qalxıb-enirəm,*
*İşığam, yanıb-sönürəm.*
*Həqqin özünə dönürəm –*
*Mən bu cahana sığmıram.*

*Şanlıdır əsrim, qərinəm*
*Həm odam, həm də sərinəm!*
*Sükutumla da dərinəm –*
*Mən bu cahana sığmıram.*

Artıq hava qaralır. Hiss edirəm ki, sürücü də harasa getmək fikrindədi. Ona görə şəhərə qayıdırıq. Otelin önündə sağollaşıb yeddinci mərtəbəyə qalxırıq. Bu da bizim üçün ayrılmış otaq. Pəncərəsindən bütün Naxçıvan görünür. Mənzərə özü-özlüyündə bizi gəzib-dolaşmağa çağırır. Vaxt itirmək olmaz. Bir stəkan çay içib şəhərə düşürük. Şəhərdə təkcə səliqə-sahman yox, elə havanın özü də gözəldi. İnanın ki, Bakının bürküsündən sonra burda adam sanki bir oksigen bolluğuna düşür. Bu bolluqdan gen-bol istifadə edə-edə adamların daha çox istiqamətləndiyi səmtə tərəf gedirik. Bu yerin adı Əyləncə Mərkəzidir…

Paytaxtın əyləncə mərkəzlərindən fərqli olaraq burda fərqli bir şərait yaradılıb. Həm alış-veriş etmək, həm bir tikə çörək kəsib, çay içmək, həm uşaqların oynaması, sevinməsi üçün hər şey nəzərdə tutulub. Bir anlıq yadıma İzmir şəhəri düşür. Orada ilk dəfə görmüşdüm bu mənzərəni. Əyləncə Mərkəzində gəzib-dolaşarkən həmkarım, çox hörmətli Hüseyn müəllimlə qarşılaşırıq. Hal-xoşdan sonra o, bizi Əyləncə Mərkəzi ilə tanış edir. Necə də gözəldi hər şey. Uşaqların sevinci, valideynlərin bir kənarda əyləşib bu mənzərəni seyr etməsi, alış-veriş edənlərin ərzaqdan tutmuş tikinti materiallarına qədər hər şeyi bir yerdən almaq imkanı…

Bəli, bax bu xidmət mədəniyyətidi. Bunu yaradanlara ancaq "sağ ol" demək olar. Biz Əyləncə Mərkəzindən çıxıb yaxınlıqdakı rəngarəng işıqlara qərq olmuş qalaya tərəf gedirik. Bu qala böyük bir ərazini elə qucağına alıb ki, sanki adamlar onun qolları arasında özlərinə xoş bir aura əldə etməyi haqq edirlər. Biz qalanın qapısından içəri girəndə ilk qarşılaşdığımız Hindistandan gəlmiş turistlər oldu. Yol yoldaşlarıma dedim ki, biz burdan-bura bu yerləri gəlib ziyarət edə bilməmişik, bu adamlar Hindistandan durub gəliblər.

Sözlərim birmənalı qarşılanmasa da, həqiqət belədi. Çünki biz bəzən ya tənbəllikdən, ya da laqeydlikdən, bir az da iqtisadi sıxıntılardan abidələrimizi, görməli yerlərimizi ziyarət etməyi arxa plana keçiririk. Hətta bir zarafat edim, mən bizi Naxçıvanda müxtəlif ünvanlara aparan sürücüdən müəyyən yerlərin harada olduğunu soruşanda üzümə təəccüblə baxdı:

– Müəllim, bunları siz hardan bilirsiniz? – dedi – Mən naxçıvanlıyam, özüm heç oralarda olmamışam.

Mən də diqqəti əldən verməmək şərtilə tez ona zarafatlı bir mesaj göndərdim:

– Eybi yox, bizə qoşulub sən də Naxçıvanı gəzib-tanıyarsan, – dedim.

Bəli, həmin axşam Nuhun dəfn olunduğu güman edilən məqbərəni də ziyarət etdik. Dostların sayəsində iş vaxtı bitmiş olsa da, bizim üçün qapıları açdılar. Bəli, içimdə olan bütün xoş hisslərin sırasına Nuh Peyğəmbərin



ruhuna etdiyimiz dualar da əlavə olundu. Və mənə elə gəldi ki, o müqəddəs insan burda dəfn olunmaqla bu torpağın nə qədər qiymətli, nə qədər möhtəşəm və doğma olduğunu insanlara mesaj edib, bildirib. Tarixə Naxçıvanın və bütövlükdə Azərbaycanın bir cənnət olduğunu möhürləyib. Elə bu təəssüratla da üzü Möminə xatının işığına doğru gedirik…

Burda hansı hisslər keçirdiyimi və bütövlükdə Möminə xatının bu, ifadə edilməsi mümkün olmayan möhtəşəm məqbərəsi önündə ancaq susmaq lazımdı. Etiraf edirəm ki, mən bu məqbərə barəsində deyilənlərdən daha gözəl heç nə deyə bilməyəcəyimə əminəm. Ona görə də susmaqla onun qarşısındakı sonsuz ehtiramımı ifadə edirəm…

Bax bu isə gecənin qaranlığında işığa qərq olmuş Hüseyn Cavidin məqbərəsidi. Yəni Cavid Əfəndinin. Bu möhtəşəm sənət əsəri də elə Əfəndimizin adına layiqdi, elə layiqli səviyyədə də qorunur. Mən məqbərənin içini ziyarət edə bilməsəm də (zaman baxımından – Ə.M.), onun ətrafını dolaşıram. Ürəyimdə misralarını təkrarlayıram və elə bilirəm ki, onun əlini öpməyə gəldiyimi Cavid Əfəndi artıq duyub. Çünki həmin an göydəki ulduzlar daha çox işıq saçırdılar, ay daha çox bədirlənmişdi. Deməli, Cavid Əfəndinin ruhu onu ziyarətə gələni qapıdan içəri buraxmışdı – əlini öpmək üçün…

Artıq saat 22-ni ötüb. Bu vaxt Naxçıvanda olduğumu bilən dəyərli şair-dostum, Naxçıvan Ali Məclisinin üzvü Asim Yadigar zəng vurur. Hal-əhval tuturuq, görüşmək barədə razılaşırıq və otelə dönürəm. Sabah Günəş oyanmamış qalxıb Batabata gedəcəm. Və orada gözəl şairimiz İslam Səfərlinin ruhundan üzr istəyib deyəcəm:

– Batabata gəlmişəm!..

**Əbülfət MƏDƏTOĞLU**
***Əməkdar jurnalist, şair, publisist***
***"Ədalət" qəzeti, 23 sentyabr 2016-cı il***

# "Naxçıvan" jurnalının 33-cü nömrəsinin təqdimatı olmuşdur

*Sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində "Naxçıvan" jurnalının Naxçıvana həsr olunmuş şeirlərdən ibarət 33-cü nömrəsinin təqdimatı olmuşdur.*

Tədbirdə çıxış edən Naxçıvanşünaslıq Mərkəzinin direktoru Şahin Əliyarov bildirmişdir ki, mərkəzin fondları mütəmadi olaraq Naxçıvanla bağlı dəyərli çap materialları, o cümlədən yeni nəşrlərlə zənginləşir. Bu gün 33-cü nömrəsinin təqdimatı keçirilən "Naxçıvan" jurnalı da Naxçıvanşünaslığa böyük töhfədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının sədr müavini Əli Həsənov "Naxçıvan" jurnalının Naxçıvana həsr olunmuş şeirlərdən ibarət 33-cü nömrəsinin təqdimatı münasibətilə tədbir iştirakçılarını, muxtar respublikanın yaradıcı ziyalılarını təbrik edərək demişdir ki, hər bir xalqın həyatında ədəbiyyatın, bədii söz sənətinin mühüm yeri və rolu vardır. Azərbaycan ədəbiyyatının xalqımız qarşısında yerinə yetirdiyi taleyüklü missiyanı yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev deyirdi ki: ***"Çoxəsrlik tariximizdə xalqımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilsin ki, ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır".***

Bu amil nəzərə alınaraq ötən müddət ərzində muxtar respublikamızda Yazıçılar Birliyinin fəaliyyəti genişləndirilmiş, birliyin gənclər təşkilatı və tərcümə mərkəzi yaradılmışdır. Birlik üzvlərinin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, onlar fəxri adlarla təltif olunmuşlar. Bundan əlavə,







Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin, Məhəmməd Tağı Sidqinin, Məhəmməd ağa Şahtaxtlının, İslam Səfərlinin, Məmməd Arazın, Əziz Şərifin, Abbas Zamanovun yubileyləri keçirilmiş, ədəbi-bədii əsərlər, almanaxlar nəşr olunmuşdur. Bununla yanaşı, Ali Məclis Sədrinin 1998-ci il 9 fevral tarixli Sərəncamı ilə ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik "Naxçıvan" jurnalı təsis edilmiş, muxtar respublikanın yaradıcı təşkilatlarının iş şəraiti yaxşılaşdırılmışdır.

Qeyd olunmuşdur ki, bu gün qədim Naxçıvan böyük quruculuq meydanına çevrilib. Həyata keçirilən tədbirlər muxtar respublikamızı müasirləşdirib. Ona yeni görkəm verib. Kəndlərimiz, rayon və şəhərlərimiz simasını dəyişib. Naxçıvanın yaradıcı ziyalıları da həyata keçirilən quruculuq işlərini vəsf etməyə, muxtar respublikanın həyatında baş verən yenilikləri, sürətli inkişafı bədii sözün qüdrəti ilə tərənnümə səy göstərir, yeni əsərlər yazırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı və himayəsi ilə şair və yazıçılarımızın əsərləri nəşr olunaraq ictimaiyyətə təqdim edilir. Bu istiqamətdə hazırlanan nəşrlərdən biri də bu gün təqdimatına toplaşdığımız "Naxçıvan" jurnalının Naxçıvana həsr olunmuş şeirlərdən ibarət 33-cü nömrəsidir. Jurnalda 75 şairin şeiri və 59 fotoşəkil yer almışdır. Jurnalda şeirlərlə yanaşı fotoşəkillərin də verilməsi Naxçıvan və onun reallıqları haqqında daha dolğun təsəvvür yaradır.

"Naxçıvan" jurnalının 33-cü nömrəsi muxtar respublikada ədəbi mühitin inkişafına layiqli töhfədir. Burada vətənpərvərlik, doğma yurda məhəbbət mövzusunda yazan yaradıcı nəsillər arasında ədəbi əlaqə öz əksini tapmışdır. "Naxçıvan" jurnalının bu nömrəsi "vətənpərvərlik mövzusunda əsərlər necə yazılmalıdır" sualına ən yaxşı cavabdır", – deyən Əli Həsənov jurnalın yeni nömrəsinin böyük dəyərə malik olduğunu diqqətə çatdırmış, Naxçıvanşünaslığa töhfə olan nəşrin hazırlanmasını himayə etdiyinə görə muxtar respublika rəhbərinə tədbir iştirakçıları adından minnətdarlığını bildirmiş, yaradıcı ziyalılarımıza yeni uğurlar arzulamışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev çıxış edərək bildirmişdir ki, Naxçıvan ədəbi mühiti tarixboyu Azərbaycan ədəbiyyatına daim böyük töhfə vermişdir. İndi, sözün əsl mənasında, çoxəsrlik davamlı ənənələrə malik olan Azərbaycan ədəbiyyatının Naxçıvan ədəbi məktəbi formalaşmışdır. Bu məktəbi "Naxçıvan" jurnalının yeni nəşr edilən xüsusi sayında da görürük. Toplunun nəşrində əsas hədəf Naxçıvan həqiqətlərini, ölkəsini, Vətənini sevən bir vətəndaş mövqeyindən tərənnüm etməkdən ibarətdir.

Tarixlər şahidi qədim və ulu Naxçıvanın zaman-zaman şair və yazıçılarımızın əsərlərində böyük sevgi və məhəbbətlə tərənnüm olunduğunu qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü, şair Asim Əliyev demişdir ki, "Naxçıvan" jurnalının 33-cü nömrəsində çap olunan şeirlər beş min ildən artıq şəhər mədəniyyəti olan qədim və həmişəcavan Naxçıvanın işıqlı, nurlu bir məkan kimi bu gün də söz adamlarının ilham mənbəyi olduğunu bir daha təsdiq edir.

"Naxçıvan" jurnalının xüsusi nömrəsinə daxil edilmiş şeirləri toplayan şair Elxan Yurdoğlu demişdir ki, hər hansı bir diyarın təbliği üçün, ilk növbədə, həmin məkan haqqında yazılmış tarixi və bədii əsərlərdən məlumat əldə edilir. Yaranan ədəbi əsərlərin bir vəzifəsi də öz dövrü haqqında gələcək nəsillərə məlumat verməkdir. Bu mənada, jurnalda yer alan şeirlərin hər biri özlüyündə muxtar respublikamızın təbii gözəlliyi, turizm potensialı, burada aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri barədə oxucularda dolğun təsəvvür yaradacaqdır.

Sonra tədbir iştirakçılarına "Naxçıvan" jurnalının 33-cü nömrəsi təqdim olunmuşdur.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasında təbiət turizmi

***İsveç Krallığında fəaliyyət göstərən "AviFauna" quş və təbiət turizmi şirkətinin təşkilatçılığı ilə 12 nəfərlik qrup 2016-cı il mayın 6-dan 14-dək Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Qrup üzvləri Naxçıvanda olduqları iki gün müddətində 44 quş növü müşahidə etmişlər. Qrup rəhbəri Tomas Haraldson Naxçıvana səfərlərinin yekunu ilə bağlı hesabat hazırlayaraq internetdə yaymışdır. Həmin yazını oxuculara təqdim edirik.***





AviFauna NATURRESOR

SOF BirdLife

Mayın 12-də biz Naxçıvan Muxtar Respublikasında öz səyahətimizə başladıq. Naxçıvan şəhəri təmiz və səliqəlidir. Türkiyə və Azərbaycanın digər bölgələri ilə müqayisədə Naxçıvandakı yollar və evlər yüksək standartlara cavab verir. Burada iki gün keçirəcəyimiz üçün çox həyəcanlı idik.

Bizi aparan avtomobil şəhərin kənarındakı kolluqlu və qayalıqlı yamaclarda dayandı. Bu ərazi Azərbaycanla müqayisədə Şərqi Anadoluda olan ərazilərə daha çox bənzəyirdi. Həmin ərazidə **qısabarmaq sərçə** (Carpospiza brachydactyla), **böyük qayalıq sittası** (Sitta tephronota), **qaraboyun çaxraqcıl** (Oenanthe finschii) və **ağrı qağayısı** (Larus armenicus) gördük. Həmin ərazidən bir az aralandıqda isə səmada **berküt qartalı** (Aquila chrysaetos) və **kiçik qartalca** (Hieraaetus pennatus) müşahidə etdik, eyni zamanda **bağ vələmirquşunu** (Emberiza hortulana) teleskopla axtararaq tapdıq. Bu zaman qiymətli quş hesab olunan **ağboğaz bülbül** (İrania gutturalis) hamının diqqətini özünə çəkdi. **Dağ vələmirquşu** (Emberiza cia prageri) və **aladöş çərənçi** (Prunella ocularis) ayrı-ayrılıqda kolların üzərində dayanaraq oxuyurdular. Alaşığırçın (Sturnus roseus) və qızlarquşlar (Meropidae) fəsiləsinə aid quş dəstələrini isə çətinliklə görə bildik.

Sonra biz dəniz səviyyəsindən 2200 metr yüksəklikdəki məşhur istirahət zonası Batabat yaylağına getdik. Hava yağışlı və çənli idi. Yerli bələdçimiz, ornitoloq bu ərazidə **aladöş çərənçi** (Prunella ocularis) görmüşdü. Kai və qrupun digər üzvləri yağış plaşlarını geyinərək əraziyə baxıb həmin quşu görmüşdülər. Qeyd edim ki, bu quşu görmək səfərimizin bonusu idi. Orada **çöl sarı** (Buteo rufinus), **kiçik qartalca** (Hieraaetus pennatus) və **yaşılbaş ördəklər** (Anas platyrhynchos) gördükdən sonra geri qayıtdıq.

Naxçıvan şəhərində buranın milli şirniyyatı olan paxlava ilə çay içdikdən sonra muxtar respublikanın cənub tərəfinə, İran istiqamətində olan yarımsəhra əraziyə yola düşdük. Qeyd edək ki, İranla həmsərhəd ərazi tamamilə başqa bir biotopdur. Burada **qısabarmaq sərçə** (Carpospiza brachydactyla), **qayalıq vələmirquşu** (Emberiza buchanani), **səhra zəvzəyi** (Hippolais languida), **böyük qayalıq sittası** (Sitta tephronota) quşlarına rast gəldik. Hörücülər fəsiləsindən olan vələmirquşu və çaxraqcıl quşları görmək istədiyimiz quş növlərindən ən mühümləri idi. Həmin ərazidə biz səmada əlavə olaraq **çöl sarı** (Buteo rufinus) , **leşcil ağqartal** (Neophron percnopterus) və **saqqallı quzugötürən** (Gypaetus barbatus), **çöl torağayısı** və **səhra qarquşaoxşarı** (Bucanetes githagineus) quşunu müşahidə etdik.

Növbəti gün qrup **monqol qırmızıqanad hörüçüsü** (Bucanetes mongolicus) quşunu görmək üçün yarımsəhra Nehrəmdağ ərazisinə səfər etdi. Nehrəmdağda qaya sərçələri, hörücülər fəsiləsindən olan dən daşıyan quşlar, xüsusilə **monqol qırmızıqanad hörüçüsü** (Bucanetes mongolicus) və **səhra qarquşaoxşarı** (Bucanetes githagineus) quşlarının yaşadığının şahidi olduq. Orada həmçinin **tarla haçaqanadı** (Anthus campestris) və **qaraqarın bağrıqara** (Pterocles orientalis) quşunu müşahidə etdik. Sonra biz Nuh Peyğəmbərin dağı – Haçadağ istiqamətinə yola düşdük. Dağın mənzərəsi çox gözəl idi. Burada görmək istədiyimiz **ikixallı torağay** (Melanocorypha bimaculata) quşunu tapdıq. Bununla da qrupumuz görmək istədiyi quşların hamısını Naxçıvanda tapdı. Lakin son dayanacaq nöqtəmiz İran sərhədi yaxınlığındakı Culfa dağları oldu. Bu ərazidə biz Naxçıvan regionunda geniş yayılmış **oxuyan torağay** və **qayalıq vələmirquşunu** (Emberiza buchanani) müşahidə etdik. Bu quş növlərinin sayının Naxçıvan Muxtar Respublikası ərazisində artması diqqəti cəlb edən bir haldır.

Turizm kampaniyasına Azərbaycanda keçirdiyimiz xoş səfərə görə təşəkkür edirik. Biz yenidən bu əraziyə səfər edəcəyik.

**Qrupun Naxçıvan Muxtar Respublikasında müşahidə etdikləri quş növləri**

1. Qısabarmaq sərçə – Carpospiza brachydactyla
2. Qayalıq sərçəsi – Petronia petronia exigua
3. Dağ kətanquşu – Carduelis flavirostris brevirostris
4. Monqol qırmızıqanad hörüçüsü – Bucanetes mongolicus
5. Səhra qarquşaoxşarı – Bucanetes githagineus
6. Bağ vələmirquşu – Emberiza hortulana
7. Qayalıq vələmirquşu – Emberiza buchanani
8. Dağ vələmirquşu – Emberiza cia prageri
9. Tarla haçaqanadı – Anthus campestris
10. Aladöş çərənçi – Prunella ocularis
11. Mil qaratoyuq – Turdus viscivorus
12. Qızılquyruq çaxraqcıl – Oenanthe xanthoprymna chrysopygia
13. Ala çaxraqcıl– Oenanthe hispanica melanoleuca
14. Qaraboyun çaxraqcıl – Oenanthe finschii
15. Göy daşqaratoyuğu – Monticola solitarius
16. Ağboğaz bülbül – Irania gutturalis
17. Tuqay bülbülü – Cercotrichas galactotes
18. Boz pöhrəçil – Sylvia communis
19. Çərənçi pörrəçil – Sylvia curruca
20. Bağ pöhrəçili – Sylvia borin
21. Gizli qamışcıl – Acrocephalus schoenobaenus
22. Səhra zəvzəyi – Hippolais languida
23. Kölgəlik yarpaqgüdəni – Phylloscopus collybita
24. Böyük qayalıq sittası – Sitta tephronota
25. Kiçik qayalıq sittası – Sitta neumayer rupicola
26. Qayalıq dağqaranquşu – Ptyonoprogne rupestris
27. Qısabarmaq torağay – Calandrella brachydactyla
28. İkixallı torağay– Melanocorypha bimaculata
29. Quzğun – Corvus corax
30. Adi zığzığ – Garrulus glandarius krynicki
31. Qırmızıbaş alaçöhrə – Lanius senator
32. Qızılı qızlarquşu – Merops apiaster
33. Qaraqarın bağrıqara – Pterocles orientalis
34. Ağrı qağayısı – Larus armenicus
35. Adi tənbəlcüllüt – Gallinago gallinago
36. Otluq cüllütü – Tringa totanus
37. Çöl sarı – Buteo rufinus
38. Adi sar – Buteo buteo menetriesi
39. Berküt qartal – Aquila chrysaetos
40. Kiçik qartalca – Hieraaetus pennatus
41. Ağbaş kərkəs – Gyps fulvus
42. Leşcil ağqartal – Neophron percnopterus
43. Saqqallı quzugötürən – Gypaetus barbatus
44. Kəklik – Alectoris chukar

***Naxçıvan Muxtar Respublikasında uşaqların futbolla məşğul olmaları, onların bu növü sevmələri və bu sahəyə meyil göstərmələri üçün hər bir şərait yaradılıb. Belə ki, bu sahədə mühüm işlər görülüb və görülməkdədir. Muxtar respublikanın bütün şəhər və rayonlarında futbolun kütləvi hal alması üçün yeni stadionlar tikilib istifadəyə verilib. Son vaxtlar Yaycı, Mahmudkənd və Bənəniyar yaşayış məntəqələrində stadionlar yenidən qurulub.***

## Muxtar respublikada uşaq futbolunun inkişafına diqqət artırılıb



Futbolun inkişafı üçün, ilk növbədə, uşaq futboluna xüsusi diqqət göstərilməlidir. Bəs muxtar respublikada uşaq futbolunun vəziyyəti necədir? Əvvəlcə qeyd edək ki, müasir infrastrukturun olması valideynlərin uşaqlarını daha çox bu növə yönləndirməsinə səbəb olub. Naxçıvan şəhərində fəaliyyət göstərən "Darıdağ" Futbol Klubunun heyətində 4 yaş qrupu üzrə məşqlər keçirilir. Şəhriyar Məmmədovun baş məşqçisi olduğu klubda 11, 12, 13 və 14 yaşlılardan ibarət komandalar var və hər bir qrupda 15 uşaq futbolun sirlərini öyrənir. Baş məşqçi İbrahim Mirzəyevin rəhbərliyi altında isə 5 yaş qrupu bu növlə məşğul olur. 9-10, 11-12, 13-14 və 15-16 yaş qruplarında, ümumilikdə, 80 uşaq məşq edir.

Ümumiyyətlə, bu növə xüsusi marağın olması sevindirici haldır. Şərur Olimpiya-İdman Kompleksinin stadionunda Bilal Nağıyev və Zaur Quliyevin baş məşqçisi olduğu 5 yaş qrupu üzrə məşqlərdə 155 uşaq və yeniyetmə futbolun sirlərini öyrənir. 12-17 yaş aralığında 195 uşaq, 9, 10, 11 və 12 yaş qruplarında isə, ümumilikdə, 60 uşaq bu növlə məşğul olur.

Culfa rayonunda məşq keçən Nəbi Rzayev, Hüseyn Məmmədov və Elxan Quliyev bizimlə söhbətdə vurğuladılar ki, hazırda futbola maraq rayonda kütləvi hal alıb. Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə dəstəyinin nəticəsidir ki, bu gün rayonda 10-11, 12, 13, 14 və 15-16 yaş qruplarında 76 nəfər məşq edir.

Mənsim Mehbalıyev və Fuad Həsənov isə Kəngərli rayonunda uşaq futbolunun inkişafı üçün səy göstərən məşqçilərdir. Onlar hazırda bu rayonda fəaliyyət göstərən 11-12, 13, 14, 15, 16 və 17 yaş qruplarında məşqçi funksiyasını yerinə yetirirlər. Bu qruplarda, ümumilikdə, 96 uşaq və yeniyetmə məşq edir.

Şahbuz rayonunda uşaq futbolu ilə 45 nəfər məşğul olur. İntiqam Rəhimovun baş məşqçisi olduğu rayonda 8-9, 10-11, 12 və 13-14 yaş qrupları fəaliyyət göstərir.

Sədərək rayonunda isə bu sahə Faiq Qasımova və Yusif Həsənova həvalə olunub. Rayonda futbolun kütləviliyi üçün səy göstərən məşqçilər 9-10, 10-11, 14-15 və 16-17 yaş olmaqla, 4 qrupda məşq keçirlər.

Babək rayonunda isə 366 uşaq və yeniyetmə 10-13 və 12-17 yaş qruplarında futbolla məşğul olur.

Göründüyü kimi, bu gün Naxçıvanda uşaq futbolunun inkişafı üçün şərait yaradılıb və uşaqların bu növə marağı getdikcə artır.

## Velosiped yarışı üzrə şəhər birinciliyinə yekun vurulub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkil etdiyi tam orta məktəblərin şagirdləri arasında keçirilən velosiped yarışı üzrə şəhər birinciliyinə yekun vurulub.

15 məktəbin komandasının qatıldığı birincilikdə hər komandanın tərkibində 6 idmançı 400 metr məsafəni qət etməyə çalışıb. Oğlanların mübarizəsində 16 nömrəli tam orta məktəbin şagirdi Elsun Kazımlı müəyyən olunmuş məsafəni hamıdan sürətli keçib. Bu məktəbin digər şagirdi Elçin Müslümov ikinci, 14 nömrəli tam orta məktəbin şagirdi Məhəmməd Mirzəyev isə üçüncü olublar.

Qızların mübarizəsində isə 7 nömrəli tam orta məktəbin şagirdi Aysel Axundova finiş xəttinə birinci çatıb. 4 nömrəli tam orta məktəbin şagirdi Xədicə Dövlətova ikinci, 16 nömrəli tam orta məktəbin şagirdi Sunay Həsənova isə üçüncü olublar.

Sonda fərqlənən idmançılar təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## 24 oktyabr 2016-cı il tarixdə Naxçıvan şəhərində saat 11⁰⁰-da hərraca çıxarılacaq müəssisələr haqqında məlumat

| Sıra №-si | Müəssisənin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 % | Obyektin satış qiyməti | Behin həcmi 10 % |
|---|---|---|---|---|---|---|
| 1. | "Sədərək Taxıl Emalı Müəssisəsi" MMC | Sədərək rayonu | 2004 | 122201,46 | 109981,31 | 10998,13 |
| 2. | "Dəstə Taxıl Emalı Müəssisəsi" MMC | Ordubad rayonu, Dəstə kəndi | 2005 | 104832,00 | 94348,8 | 9434,88 |

**Qeyd:** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

*1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd.*

*2. Müəyyən edilmiş formada sifariş.*

*3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.*

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrəsi: 545-01-38, 545-02-36***

### İtmişdir

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 7, ev 18-də yaşamış Zeynalova Səkinə Əsgər qızının adına olan 1639 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz şəhəri, "28 May" küçəsi, bina 16, mənzil 19-da yaşayan Xəlilov Əfrasiyab Əli oğlunun adına olan 51 inventar nömrəli texniki pasport və MH-0014906 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 717